# ÇİNGİZ ÖMRÜNÜN POETİK XRONİKASI

*(Əvvəli ötən sayımızda)*

Bütün ölkələrdə və bütün xalqlarda söz - və əlbəttə ki, bədii söz yarandığı mühitin təbiətini əks etdirib. Bu təbiətdəki sülh və savaş, ölum və ölüm, oğru və doğru, yalan və düz... nə varsa, sözdə görünür. Və gələcək nəsillər özlərindən əvvəlki tarixi məhz zamanında yaranan sözün rəngləri ilə qavrayıblar. Ümumiyyətlə, zamanında yaranan sözün dəyəri bütün hallarda daha qiymətli hesab olunur; ən azı informasiya baxımından.

Məlahət Soltanqızı ədəbi-mənəvi mühitimizdə son illər poetik məhsuldarlığı ilə görünən müəlliflərdəndir. Ancaq onun ümumi ədəbi-mənəvi mühitdə fərqli görünmək iddiası olmasa da, poetik yaradıcılığı, xüsusilə poemaları göstərir ki, o bütün həyatı ilə sözün məxrəcində dayanıb. Biz onun ayrı-ayrı poemaları haqqında ola bilsin ki, daha geniş və əhatəli söhbət açdıq. Ancaq hələlik "Yarımçıq ömrün xatirəsi" əsərinin motivləri əsasında duyğu və düşüncələrimizi yazıya gətirmək istərdik. Bu əsər məlum olduğu kimi Azərbaycanın milli qəhrəmanı Çingiz Fuad oğlu Mustafayevin həyat yoluna işıq tutur.

Bilmirəm, dünyanın bəlkə də hansı ölkəsindəsə döyüş xronikasını çəkə bilən bir operatorun qəhrəmanlığı ən yüksək dərəcədə təltifə layiq görülüb, ya görülməyib... Bəli, mən bunu bilmirəm. Amma onu bilirəm ki, Birinci Qarabağ müharibəsinin ən nadir və bu gün bir çox düyünlərin açılmasına xidmət edən məqamları lentin yaddaşına köçürə bilən və sözün həqiqi mənasında bu işin icrası zamanı fədakarlığı ilə fərqlənən, demək, ölümünü də gözünün altına alan bir igidin bir xalqın milli qəhrəmanı adına layiq görülməsi nadir hadisədir.

Çingiz Mustafayev təbiətən nadir adam idi. Xaraktercə çılğınlığı, həyatın sakit axarına qarşı iradəsi və inamı ilə üzmə bacarığına görə fərqlənirdi. Başqalarının tükünün tərpənmədiyi məqamlara ehtiraslı emosiyaları ilə münasibət bildirmək gücü vardı. Şübhəsiz, onun təbiətinin bu cəhətləri "Yarımçıq ömrün xatirəsi" poemasının müəllifinə əsəri yazmaq üçün material verib.

Aydın məsələdir ki, hər bir şəhidin, hər bir vətən uğrunda döyüşən əsgərin yaralanması, əlil olması, hətta sağ qalması belə dəxli olmadan sənətkar üçün ilham mənbəyi olmalıdır.

Şair, yazıçı, rəssam öz yaradıcılığı ilə vətən əsgərini obraza çevirir. Bir daha təkrar etməyə dəyər. Şəhid olsun, yaralı olsun, əlil olsun, yaxud bu döyüşlərin içərisindən sağ çıxsın... dəxli yoxdur. Vətən uğrunda vuruşan hər kəs sözün ucalığında qərar tutmağa layiqdir.

Məlahət Soltanqızı Çingiz Mustafayevin həyat yolunu özünə ilham qaynağı bilərək qəhrəmanlığın həyatdakı mənəvi yüksəlişini tərənnüm üçün əsas götürür. Bir sözlə, Məlahət Soltan qızı "Yarımçıq ömrün xatirəsi" poeması ilə Azərbaycanın Milli Qəhrəmanı Çingiz Fuad oğlu Mustafayevin nəsillərə örnək ola biləcək həyatını tərənnümə başlayır.

Amma o hiss edir ki, asanlıqla sözə gələ bilmir. Sanki bunun üçün klassiklərin özündən əvvəlki istinad sənətkarların müraciətlərindən bəhrələnir.

*Ya rəbbim, gözümdən qovla yuxumu,*
*Mən yazmaq, yaratmaq arzusundayam.*
*Söz mənim silahım, qolum, qanadım,*
*Bir dastan yaratmaq arzusundayam.*

Bu müraciətdə yalnız klassik ricətlərin ruhu qorunur. Formanın qədərincə mükəmməl olmaması heç diqqəti cəlb etmir. Sadəcə səmimi müraciət oxucunun diqqətini özünə çəkir. Oxucu maraq mühitinə daxil olaraq müəllifin nə demək istədiyini, nə üçün Allaha müraciət etdiyini, nə üçün yuxudan, ətalətdən qaçmaq istəyini başa düşmək naminə onun düşüncə sferasına daxil olur. Və tezliklə məlum olur ki, müəllif bir gəncin taleyindən söhbət açacaq. Və oxucu da onun düşüncələri ilə həmin gəncin taleyinə doğru yolu uzaqdan başlayacaq. Qəhrəmanların həyat yolu, düşüncə yolu əslində həm də tarixin bir parçasıdır; elə qəhrəmanların ömrü qədərdəki bir parçasıdır.

Məni oxucum bağışlayar. Burada əsərin poetik imkanlarından çox müəllifin ədəbi qəhrəmana obrazlı münasibətini təhlillərimlə çatdırmaq istəyindəyəm. Ona görə də əsərin forma baxımından təqdiminə üstünlük verməyərəm, yalnız məzmunu əsas götürməyə çalışacağam. Əlbəttə, diqqətli oxucu təqdim olunan mətnlərdən də müəllifin poetik ilham gücünü müşahidə etmək imkanını qazana bilər: *"1960-cı il, Həştərxan vilayəti... Vladimir rayonunun, Kapustin - Yar qəsəbəsi, Vətənimdən uzaqda, bir hərbçi ailəsi. Ailə gəncdi, cavandı, Həddən artıq mehribandı, Bir körpənin doğumuyla Onlar necə sevinmişdi. Çingiz - deyə çağırdılar, Çingiz qoydular adını. Allah versin muradını. Sevə-sevə böyütdü, Ana öz övladını. Çingiz çox dəcəldi, İpə-sapa yatmazdı. Çox sevərdi oyuncağı, Oyuncaqla böyük kimi davranardı. Oyuncaq maşınları, Söküb qoyardı yerə. Çağırardı anasını, Sökdüyü maşınları, Yenidən yığsın deyə. Dörd yaşına çatanda Anası rəsm albomu, Rəngli karandaş aldı. Çingiz o gündən sonra Oyuncaqdan aralandı, Meyilini rəsmə saldı. Şəkilli kitablara Baxmağı çox sevərdi. Kitabdan şəkilləri Alboma köçürərdi. Çəkdiyi cızma-qara Yaman qatdı başını. Anasına çox suallar verərdi, Gördüyündən yan keçməzdi, soruşardı, öyrənərdi".* Bu parçada göstərilən tarix Çingiz Fuad oğlunun doğumunu işarə edir, dünyaya gəlişinə diqqəti çəkir. Eyni zamanda təqdim olunan parçada biz Çingizin doğulduğu ailənin mühitini də görürük. Bu ailənin yüksək insani hisslərlə yaşamasını, xüsusilə dünyanı sülh mühitində görmək istəyini mətnin içərisindən gələn əhvaldan da duymaq olar.

Çingiz körpədir, ona təqdim olunan oyuncaqların, onun böyüdüyü mühitin rəngləri göstərir ki, Çingiz hələ körpəlikdən həssaslığı ilə fərqlənib. Maraqlıdır ki, müəllif onun oyuncaqları sırasında maşınları, yəni ölüm obrazından kənar oyuncaqları təqdim edir. Sonra rəsm albomu, rəngli karandaşlar, şəkilli kitablar... bir-birini əvəzləyir. Bunlar Çingizin mənəvi dünyasının formalaşmasında xüsusi rol oynayır.

Çingizin böyüdüyü mühit onu dünyanın sülh adamı kimi formalaşdırmaq istəyirdi. Çox təəssüf ki, bəzən istəklər heç də həyatda qanunauyğun axarla formalaşa bilmir.

...Və tezliklə Çingiz ailəsi ilə birlikdə hələ 4 yaşı tamam olmamış yeni mühitə, əslində doğmalarının olduğu mühitə gəlir. "Qayıdır" ona görə demirik ki, o, Azərbaycanda doğulmamışdı. Amma o, ruh etibarı ilə azərbaycanlı balası olduğu üçün elə doğma məkanına qayıtmışdı: *"1964-də bu fədakar ailə, Köçüb Bakıya gəldi. Çingiz çox sevinirdi, Bütün qohum-əqrəba Burda imiş sən demə. Vətənin qoxusunu Sanki o da almışdı. 4 yaşında bir uşaq Vətənin şirinliyin Axı necə almışdı? Sevinirdi nənə-baba qayğısından Necə şən keçirdi burda günləri. Bu şəhərdə boy atdı, Burda məktəbə getdi. Oxudu, öyrəndi böyük həvəslə, Əlindən düşməzdi kitab, dəftəri. Çingiz çox sevirdi bütün müəllimləri. Çingiz intizamlıydı, Dərslərə geçikməzdi. Çingiz əməksevərdi, Bilmədiyin soruşardı. Çalışardı, öyrənərdi. Ciddiyyəti, Hər bir dərsə diqqəti, Sinif yoldaşlarında yaratmış ona qarşı diqqəti. Körpəlikdən hər şeyi maraqla izləyərdi. Heç nə qaçmaz gözündən, Ayıqdı aslan kimi. Dalaşmağı sevməzdi, Fəqət biləklərində Yetərincə güc vardı. Dostları çəkinərdi onun baxışlarından, Gözlərində bir kədər, bir ciddiyyət var idi. Çingiz öz yaşından tez böyümüşdü. Dostlarının içində fərqliydi görkəmiylə. Enlikürək, ucaboy, Dostlarına bağlıydı böyük səmimiyyətlə. Sevərdi ünsiyyəti, tənhalıqdan qaçardı. dərslərini dostlarla birlikdə çalışardı. Qonaq-qaralıydı ata ocağı, Evdən qonaqların üzü dönməzdi. Anası Naxış xala nə süfrələr qurardı Övladların yolunda o, canını qoyardı. Bir gün məktəb çıxışı Çingiz dostu Muradı Alıb evə gətirdi. Evdə qonaqlar vardı... Çingiz Muradla birgə otağına çəkildi. Ana qonaqları tez rahatladı. Çingizin otağında ayrıca süfrə açdı. Dostlar şirin-şirin yeyib-içdilər. Murad balacaydı bunca hörmətdə, Yaman sıxılmışdı bu məhəbbəti Yalnız doğma anasından Gözləyə bilərdi, uma bilərdi".* Biz bu parçada Çingizin hələ uşaq vaxtı necə istiqanlı olduğunu, onun atasına, anasına münasibətini müəllifin səmimi düşüncələri əsasında qavrayırıq. Hiss olunur ki, Çingiz başqalarına, hətta öz yaşıdlarına belə (uşaq olmağın dəxli yoxdur) atasının, anasının münasibətində necə sonsuz doğmalıq görür.

Biz artıq bu məqamda Çingizin uşaqlıq dostu Muradla tanış oluruq. Hətta Murad yaşca Çingizdən də kiçikdir. Ancaq ana üçün Murad elə Çingizin bərabəridir. Və elə bu yanaşma meyarı Çingizin dünyagörüşünün formalaşmasında özül daşına çevrilir, bünövrəyə çevrilir. Biz hələ gələcəkdə görəcəyik ki, Çingiz üçün həyat idealı insan taleyi deməkdir.

Məlahət Soltanqızı Çingizin həyat yolunu izlədikcə ən xırda xarakterik detaldan ilhamlanaraq sözünü, duyğularını dilə gətirir. Sanki Çingiz üçün təsadüflər onu necə mənən böyüdürsə. Məlahət Soltanqızını da Çingizin həyatının ayrı-ayrı epizodları eləcə ilhama gətirir. Onu məhz sevgili duyğularla süsləməyə çalışır: *"Bir xoş təsadüfə, bir xoş müjdəyə Çingizin özü yox, gözü gülərdi... Qapalıydı, hər sözün Açıb danışmaz idi. Hamı sevirdi onu, bütün dostlar, qohumlar. Kimin nə dərdi olsa, onunla bölüşərdi. Çingizsə dostlarını saatlarla dinləyib Bir nəsihət verərdi. İstəməzdi dostların əziz qəlbini qırsın, Ya özündən kiçiyə çönüb dir şillə vursun. Onun baxışlarında Həyat sevgisi vardı, Vətən sevgisi vardı. Qızlar məhəbbətlə baxardı ona. Çingizin bir baxışıyçün Girərdilər dondan-dona. Çingiz insanlara dəyər verərdi. Kimsəni kimsədən ayırmazdı o, Qəlbimdə hər kəsin öz yeri vardı. Sözündə ötkəm idi. Dönməzdi haqsızlığa Durardı dostlarının Arxasında dağ kimi. Qolunun gücünə güvənməzdi o Ağlının gücünə güvənərdi o. Dostlarına hörməti, Sonsuz sədaqətiylə Sevdirmişdi özünü. Danışmağı sevməzdi Hər yerdə, hər zamanda. Öz işi, sənətiylə, Yaxşı əməlləriylə Seçilirdi hamıdan Uşaqlıqdan beləydi, Dar macalda haminın. imdadına yetərdi. Qəlbinə yaxındı seçdiyi sənət. İnsana duyduğu sonsuz məhəbbət Seçdiyi peşənin elə özüydü. Həkimlik - insana qayğı, məhəbbət Şirin dil, gülər üz, xoş səmimiyyət".* Çingiz üçün insan həyatını qorumağın ən üstün tərəfi onun erkən yaşlarından duyğularına hopan bir istəklə cücərmişdi. Bu, həkimlik arzusu idi. Və göründüyü kimi müəllif də əsərinin seçilmiş parçasında məhz onun duyğularına öz istəyinə uyğun işıq salır.

Beləliklə, Çingizin mənəvi mühitindəki insanı qorumaq idealı onun seçdiyi peşə kimi həyatının yeni mərhələsində real addımı ilə öz təsdiqini tapır: *"Orta məktəb illəri Artıq çatmışdı sona. Çingiz sənədlərini Verdi Tibb İnstitutuna. Onun çəkdiyi zəhmət Vermişdi bəhrəsini. Çingiz çox sevinirdi. Çatmışdı arzusuna. Bir alçatmaz zirvənin Qonmuşdu qayasına. Artıq tələbədir. Dünya onun gözündə Dəyişmişdi donunu. Bir möhtəşəm məkanda Böyük-böyük alimlər İndi ona dərs verir. Getdikcə anlayırdı Çox çətin bir peşənin Yapışıbdır qulpundan. Gecə-gündüz bilmədən, Oxuyub öyrənməli Tələbəlik illərindən Yaxşı bəhrələnməli".* İnsan daş-torpaq xırdası deyil, o, arzusuna doğru, qətiyyətlə irəliləyən canlı varlıqdır. Və həm də irəlilədikcə böyüyür, güc kəsb edir, kimliyini daxili-mənəvi tələbatının istəyi ilə sübut etmək istəyir. Şübhəsiz, Çingiz Mustafayev də belə bir istək yolunda qətiyyətli idi.

Bu qətiyyəti Məlahət Soltan qızı - yəni Çingiz Mustafayevin istək qətiyyətini dolğun misralarla oxucunun diqqətinə çatdırır: *"Çingiz həkim olmaq üçün, uzun zamanlar, Elmin yollarında çalmışdı külüng. Yuxusuz gecələr, yorğun zamanlar Gənclik illərinə kəsilmiş hakim. Tələbə olmağın şirinliyini Bəzən unudurdu həyəcanından. Oxuyur, araşdırır, öyrənirdi həvəslə düşünürdü bu peşə ömürlik bir yoldaşım. Axı sevib-seçmişdi, bu müqəddəs peşəni. Şəfalı əlləriylə xəstələrə can vermək Ümidsiz baxışlara, ümid toxumu səpmək. Çarəsiz insanların köməyinə yetişmək Onun vəzifəsiydi".* Artıq bu mətndə biz Çingizin həkim olmaq üçün istəyinin motivlərini görürük. İnsanı qorumaq, çıxılmazlığa düşən insanın köməyinə yetmək, onu hətta lazım gələn anda ölümün pəncəsindən xilas etmək - bütün bunlar artıq Çingizin mənəvi mühitində kifayət qədər aydın görünən cəhətlər idi.

Şübhəsiz, ixtisas seçmək, insanları qorumaq, həyatın normal sağlam mühitini təmin etmək, bütün bunlar Çingiz üçün üstün duyğular idi, amma hər bir gəncin mənəvi mühitində şimşək çaxışları ilə yeni təzahürlər ortaya çıxır.

Məlahət Soltanqızı öz poemasında Çingizin həyatının belə bir şimşək çaxışı ilə işıqlanan tərəfinə də poetik münasibət bildirir. Hətta bu münasibətdə biz Çingizin necə duyğulu, sevgi qarşısında sanki gücsüzlük obrazını (bu mənəvi böyüklük obrazıdır) da kifayət qədər aydın görə bilirik.

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

**Müəllif Çingizin taleyi üçün onun mənəvi saflığının yeni mərhələdə bünövrə daşı üçün bu sevgi motivlərini də həssaslıqla qələmə alır:** ***"Qəlbində bir kədər vardı, Çingizin Kimsə anlamazdı, Bu qəm nə qəmdi? Xəyalında yaratdığı mənzərə Dumanlı, çiskinli yaşıl aləmdi. Bu aləmin içində bir qız vardı. Çingiz oğrun-oğrun hər an ona göz qoyardı. Sanki körpə bir fidandı, ürəyinə əkmişdi. Yavaş-yavaş böyüyürdü sevgisi. Bir özü bilirdi, bir də Allahı. İstəmirdi bu sevginin qanadları qırılsın. İstəmirdi bu sevgi yarımçıq yolda qalsın. Bəsləyirdi ürəyinin qanıyla, Bağlanmışdı varlığıyla, canıyla. Qızsa xəbərsizdi sevda bağında Onunçün çəkilən bu qayğılardan. Çingizsə məmnundu gecəbəgündüz Qəlbində kükrəyən bu duyğulardan. İnstitut illəri onu almışdı Bir sevda bağında yerə salmışdı. Bu bağda cənnətin qoxusu vardı, Ancaq sevən kəslər bunu anlardı. Ömrü qısa oldu bu məhəbbətin, Cəmi bircə bahar, cəmi bircə yaz. Çingiz açmamışdı qəlbini qıza Hələ gözləyirdi qoy ötsün bir az. Qoy sevginin qol-qanadı bərkisin".*** **Necə böyük ümidlərlə, necə sonsuz duyğularla gənclər hərəsi bir tərəfə üz tutur. Deməli, Çingiz də qəlbində od alan sevgisinin, ocaq qıran məhəbbətinin təntənəsi ilə qanadlanır. Ancaq sevgi müqəddəsliyinin tələb etdiyi cəsarət çatışmazlığı ona imkan vermir ki, öz sevgilisinə, istəklisinə duyğularını açsın, qəlbinin istəklərini ona çatdırsın. Ona adı ilə xarakterizə etdiyimiz bu qız Məlahət Soltanqızının xüsusi bir rəğbətlə andığı obrazdır. Onun adı Nərgizdir.**

**kar duyulur:** ***"Dərslər başlamışdı, dərsin ilk günü Çingiz gözləriylə çox gəzdi onu, Gözlər hey aradı, axtardı onu. Artıq tükənmişdi səbri dözmədi, İnstitutdaydı Nərgizin ən yaxın rəfiqəsi. Salamlaşdı onunla, Bir az hal-əhval tutdu. Artıq dözə bilmədi: - Nərgiz gözümə dəymir, Yoxsa, dərslərə gəlmir?*** *Arzu bircə anlıq dayandı, durdu Özünü itirdu bu nə sorğuydu. Çingizi tanıyırdı, gendən-genə həmişə Salamını almışdı. Ancaq Nərgizlə bağlı bir söhbət olmamışdı. - Nərgizi soruşma, axtarma onu Dalğalar əbədi apardı onu. Anası gəlmişdi, dünən burdaydı, Axıdıb gözünün yaşın sel kimi - Olacaq iş deyil - deyib ağladı. Nərgizin bu vaxtsız ölümüylə o, Anadır, hələ də barışmamışdı; - Dəniz övladımı yedi qurd kimi, Nə izi tapıldı, nə də sorağı. Dəniz qənim kəsildi Nərgizin həyatına. Dincəlməkçün gəlmişdi, xalasının yanına".* **Beləliklə, Çingizin həyatında ilk sarsıntı mərhələsinin acı sonluğu burada bitir. Ancaq hələ heç kimsə deyə bilməz ki, onu gələcəkdə hansı tale, hansı yol, hansı ağrı-acılar, hansı mübarizələr, hansı qətiyyətlər və ən başlıcası, hansı sarsıntılar gözləyir.**

**Müəllif Məlahət Soltanqızı Nərgizin həyatına da ötəri də olsa, münasibət bildirir. Ancaq onun yanaşması o qədər təbii və realdır ki, kiçik bir parça ilə də Nərgiz oxucu yaddaşına həkk olunur. Hətta Çingiz Fuad oğlu kimi bir qəhrəmanın mənəvi silahdaşı kimi əzəmi bir güc kəsb edir. Doğrudur, Nərgizi hər hansı bir ictimai fəallıqda fədakarlıq timsalı kimi görmürük. O təsadüfi təbii fəlakət qurbanıdır. Amma bir qəhrəmanın ilkin idealı kimi, saf sevginin daşıyıcısı kimi yaddaşda qalır. Bu da onu göstərir ki,**

*kilərə? Nə cavab verəcək soruşanlara. Bəd xəbər tez yayılır Bütün qohum-əqrəba Tökülmüşdü sahilə. Hadisəyə böyüklər, Paqonlular qarışdı. Ölüsü, ya dirisi, neçə gün axtarıldı, Çıxmadı bir xəbəri Gözəl bir qızı udmaq, Bu dənizin zəfəri".* Zənnimizcə, bu epizoddan müəllif təsadüfən bəhrələnmir. Elə Qarabağ hadisələrinin cəmiyyətin həyatında baş verən təlatümləri də sanki cəmiyyətin həyatının fırtınası idi. Cəmiyyətin həyatında baş verən bu fırtınalar, yəni erməni vandallarının ölüm yürüşləri də insan həyatı üçün, xüsusilə günahsız insanların taleyi üçün ölüm maşınına çevrilmişdi.

İnsanlar baş verən hadisələr üçün sanki cavab tapmırdı. Sanki dəniz təlatümə gəlmişdi və o, insanları udmaq istəyirdi. Məhz bu müqayisədə Məlahət Soltanqızının Nərgiz obrazına münasibətini biz aydın başa düşə bilərik. Ancaq cəmiyyətdə çoxları var idi ki, baş verən hadisələrə qədərincə inanmırdı.

Azərbaycanın yeni nəsil düşüncə adamları sırasında baş verən hadisələrin mahiyyətini çoxları anlaya bilmirdi. Amma Çingiz Fuad oğlu onun Nərgizini udan dəniz fırtınalarını yada saldıqca cəmiyyətdə baş verən hadisələrin haraya, hansı məqama apardığını artıq başa düşməkdə idi, Hərçənd ki, onun özü də hələ bir çox məqamlara inanmırdı. Müəllif yazır: *"Çingiz inanmırdı bu olanlara... Elə bil donmuşdu damarda qanı. Bu yay çox getmişdi dəniz sahillərinə. Saatlarla oturub suları seyr etmişdi. Bu nə təsadüf belə Onun sevdiyi qızın dənizlərlə batması, sulara qərq olması... Çingiz yenə sahildəydi, İzləyirdi ləpələri... Çingiz inanmırdı, bu, nə xəbərdi, Qəlbində saxladığı, kimsəyə açmadığı Bu sev-*

***har çiçəyi Qoxladıqca doymazsan. Bir şirin yuxu kimi Sanki xəyallardasan. Gənclik ömrün baharı... Bir fəsil anlamında elə ötüb keçər ki, Qiymətini anlamazsan".*** **Beləliklə, artıq Çingiz Mustafayev Qarabağ döyüşçüləri sırasındadır. Sanki Məlahət Soltanqızı da öz qəhrəmanını həyatda olduğu kimi döyüşə kifayət qədər hazırlayıb. O həkimlik cəbhəsindən keçib, sevgi ağrısını yaşayıb, insan həyatı üçün iztirabların nə demək olduğunu kifayət qədər bilib. Və o, qədərincə yetkin bir zamana gəlib çatıb.**

**Məlahət Soltanqızı Çingiz Mustafayevi həyatın hər cür axarından keçirərək gəncliyinə baxmayaraq, onu yetkin bir obraz kimi Qarabağ döyüşlərinə qədər gətirib çatdırır. Çingiz Məlahət Soltanqızının "Yarımçıq ömrün xatirəsi" poemasında artıq nəinki öz həyatının rənglərini, habelə cəmiyyətin həyatının bütün rənglərini görəcək qüdrətdə Qarabağ uğrunda döyüşçü kimi təqdim edir.**

**Və artıq Çingizin Qarabağ uğrunda savaşın önündə gedən bir əsgər obrazını görürük:** ***"Başqa cavanlar kimi Çingiz də döyüşürdü. Döyüş səhnələrini tarixə köçürürdü. Xocalıda düşmənin törətdiyi vəhşilik, Əliyalın millətə tutulan divanların, Axıdılan qanların, çıxarılan gözlərin Qırılan körpələrin hər birini çəkdikcə, tarixə köçürdükcə Çingiz göz yaşlarını axıtdı gilə-gilə. Bu böyüklükdə dərdə, de, hansı ürək dözər? Şəhərə soxulmuş böyük bir ordu, Virana qoymuşdu, şəhəri, yurdu. Qışın şaxtasında donmuş meyitlər, Aramsız ulaşır sahibsiz itlər. hər evin, ocağın çırağı sönmüş, qapısı bağlanmış, yiyəsi ölmüş. Çingiz meyitləri çəkirdi bir-bir, Əsgərlər cəsədləri Qala-***

# ÇİNGİZ ÖMRÜNÜN POETİK XRONİKASI

Çingiz Nərgizə öz hisslərini açmır. Sadəcə açmır demək düz deyil, hələ ki, aça bilmir. Və zaman artıq öz hökmünü verməkdədir: *"Yaz qurtardı, hamı çıxdı tətilə Əlaqələr kəsildi, günlər yaman uzandı. Çingizin məhəbbəti ürəyində boy atdı. Bu, ayrılıq qanadını qırmışdı İçində qəribə bir kədər vardı. Darıxırdı, yerə-göyə sığmırdı. İstəyirdi dostlarla öz qəlbini açmadan Məhəbbətdən danışsın. Danlayırdı özünü, kaş qəlbimi açaydım. Kaş bir cavab alaydım. Arabir görüşərdik, sevgini bölüşərdik".* Necə həssas məqamlardır, necə duyğulu misralardır. Və adama belə gəlir ki, müəllif öz gəncliyində müşahidə etdiyi hissləri, duyğuları məhz Çingiz obrazı ilə bağlı yazıya gətirib. Ona görə də bu misralarda təbiilik, doğmalıq, oxucunu öz cazibəsinə ala bilir.

Məlahət Soltanqızı gənclərin (əlbəttə, Çingizin timsalında) yay həsrətini də real cizgilərlə verir: *"Uzun yay gecələri, uzandıqca uzandı, Sevda dolu gecələr zəhərli ilan kimi boğazına dolandı. Yuxu nədi - bilmədi. Gündüzlər dostlarıyla çimərliyə gedərdi. Sahildə oturub, dənizi seyr edərdi. Yarıb suyun bağrını, oynardı ləpələrlə, İlk dəfəydi ömründə yayın tez bitməsini həsrətlə gözləyirdi".* Beləliklə, iki gəncin taleyi ilə bağlı bu həsrətli hekayətin bir vüsalla sona çatacağına oxucuda da bir inam yaranır. Məlahət də əsərini məhz belə bir inam üzərində kökləyir.

Ancaq dədə-babadan qalma bir məsəl də var. Sən saydığını say... Axı fələyin saydığı başqa məqamlar da ola bilər. Dərslər başlayır. Ancaq Çingizin gözlədiyi Nərgiz görünmür. Təəssüf eləməyin, ruhən ağlamağın, mənən sarsılmağın ən acı tərəfləri Məlahət Soltanqızının poemasında da açıq-aş-

qəhrəmanların həyatında təsadüfi heç nə yoxdur. Ən epizodik cizgi belə qəhrəmanların həyatı üçün xarakterik əhəmiyyət kəsb edir: *"O gün də bir gün idi... Axşamdan kefsiz idi, Nərgiz susub dururdu. Sanki ölüm gərmişdi amansız qanadını. Sanki yanı-başında Əzrayıl firlanırdı. Xəyallara dalmışdı, fikir onu almışdı... Gözləri yol çəkirdi... Mənalı baxışında Bir sonsuzluq var idi... Ölüm sirrdi kimsə bilməz gəlişin. Bircə anda insanın ruhuna hakim olar. Ölüm ruhun bayramı! Ruh tərk edər qəfəsi Ölümlə sona yetər Hər canlının nəfəsi. Yarı-yarımçıq qalar İnsanların həvəsi. Ümidlər, arzular yarı-yarımçıq, Sevgilər, xəyallar pərən-pərəndi. Əbədi yumular. sönər baxışlar Sənli dünya artıq geridə qalar. Hər bir insan xatirəyə çevrilər. Həyatın danılmaz qanunudur bu, Ölümdür yaranan insanın sonu. Hər şeylə barışar, hər şeyə alışar, Ölümlə barışmaq istəməz insan.*

*Xalasının qızıyla səhər enmiş sahilə, Qəribədir, uşaqlıqdan dənizi çox sevərdi, Sahildə qumla, suyla Oynamağı sevərdi. O tərəflər boş olur, kimsə yoxdur sahildə, Humay deyir: "bir saat sahildə gəzişmişik Qumun, gündən, istidən Qızmasın gözləmişik". Nərgiz hey danışırdı: - Mən üzmək istəyirəm, Bu sonsuz mavilikdə, boğulmaq istəyirəm. - Elə qəfil, anidən cumdu dənizə sarı Baş vurdu sulara, Sanki əcəl gəlmişdi. dənizin sularında Qanadını gərmişdi. Qollarını açmışdı, Onu qucaqlamışdı. Humay arxasınca çağırmış onu: - Nərgiz, gözlə məni, mən də gəlirəm. - Nərgiz, Nərgiz, - deyə çağırdı heyhat. Nərgiz görünmürdü, kimsə yox idi... Dəniz sakit-sakit ləpələnirdi. Humay hey çağırır, bilmir neyləsin, Nə cavab verəcək evdə-*

*ginin sən dəmə, Qanadları qırılmış, yarımçıq yolda qalmış. Bu sevgi çırpındı yaralı quş tək, O qəmli xatirə burda bitəcək".* Doğrudur, hələ ki, Çingiz Qarabağ hadisələrinin içərisində deyil, ancaq onun həyatında baş verən bu hadisənin mahiyyəti onun həyatının sonrakı mərhələdəki nizamını müəyyən elədi. Bir sözlə, gənc Çingiz bu tərəddüdlü düşüncələrlə tələbəlik həyatını başa vurur. Onun üçün yeni həyatın yeni dövrü gəlir: *"Tələbəlik illəri artıq yetişdi sona. Çingiz dəyişmişdi, yaş üstə yaş gəlmişdi. Yaxşı öyrənmişdi o, peşəsini. Təyinat da almışdı bütün tələbələr kimi. Dəvəçi rayonunda üç il həkim işlədi. Ağ xalatı bu cavan Qısa müddət ərzində Bu rayonun içində Yaxşı bir həkim kimi Ad çıxardı, sevildi. Çox ağır xəstələrin Harayına yetişdi. Ümidsiz xəstələrin ümidini qırmadı. Hər xəstəyə sevgiylə, məhəbbətlə yanaşdı. İnsanların qəlbində özünə yuva açdı. Ağır xəstəsi olsa, gözünə getməzdi yuxu, Xəstələrlə keçərdi onun vaxtının çoxu. Anlamışdı bu sənət fədakarlıq istəyir".* Zənnimcə, bizim tələsməyimizə baxmayaraq müəllif bir qədər təmkinli hərəkət edir. O, Çingizin həyatını addım-addım izləməyə çalışır. Sanki Çingizin həyatında baş verən hər hansı bir yeniliyin onun mənəvi böyüklüyünə təminat verən bir amil kimi qiymətləndirir. Özü də müəllifin düşüncəsinə görə həmin dövrün gəncləri təbiət etibarı ilə cəmiyyətə daha çox bağlı, insanlığı ideal kimi qəbul edən yeni nəslin obrazları idilər: *"O illərin gəncləri Atıb öz peşəsini, silaha sarıldılar. Düşmən sarmış qapını həkim, müəllim, mühəndis... Geyib əsgər paltarın, Orduya yazıldılar... Gənclik ba-*

*yırdı maşına. Qadın, uşaq bilməmiş, qırmışdılar milləti... Qışın şaxtası, qarı, Qovururdu insanı. Şəhərdə insandan qalmamış əsər, Səpələnmiş cəsədlər, hara baxsan qan izi. Tanrı, mərhəmət eylə, tükətmə səbrimizi. Təsvir etmək çətin bu şəhərin halını, Dağılmış əşyaların, sahibsiz çəkmələrin Sayı, hesabı yoxdur. Yoxdu canlı bir insan, sorub-soruşdurasan. Evlər viranə qalmış Hər tərəf cəsəd dolu. Bu vəhşəti izləmək elə də asan deyil. Düşmən bu vəhşətiylə özün qalib sayırsa, O, insan cildinə girmiş heyvanlar. Axı insanlıqdan nə anlar? Körpə uşaqlara tuşlanan silah İnsan barmağı ilə sıxılmaz, vallah".* Əlbəttə, Çingiz kiminlə, necə bir vəhşi düşmənlə qaşrılaşdığını da biləcək bir düşüncədə görünür. Ona görə də müəllif düşmənin qəddarlığını (bu yöndə həm də Çingizin heyrətini) onda görür ki, düşmən qocaya, qadına, uşağa rəhm eləmir. Hətta müəllifin öz dili ilə desək, uşağa tətik sıxan bir şəxsin insan olmasının özü belə şübhəlidir.

Zaman göstərdi ki, M.Soltanqızı da, Ç.Mustafayev də öz düşüncələrində haqlıdır. Ç.Mustafayev ona görə haqlıdır ki, onun vətənini, doğma torpağını, Qarabağını düşmən işğal eləmişdi. Buna görə də düşmənə qarşı mübarizə aparmaq, onun qeyri-insani əməllərini ifşa etmək onun missiyası idi. Bu gün dünya ekranlarında Çingiz Fuadoğlunun çəkdiyi kadrlar ən təkzibolunmaz faktlar və sübutlar kimi göstərilir, Azərbaycan xalqının haqq səsini, haqq sözünü diktə edir.

*(Davamı var)*

*Əli Rza XƏLƏFLİ*